**Mirzəbəyli İ**. Biləsuvarlı şəhid atasına söz vermişdim ki... // Xalq qəzeti. - 2024. - 1 mart. - **№ 47**. - S. 9.

**Yanvarın son günlərində Mərdəkandakı "Günəşli" nevroloji sanatoriyasında müalicə olunurdum. Sanatoriyanın həyətindəki tikililərdən birində Ağdam seçki dairələrinin (bu rayonda 118 nömrəli şəhər və 119 nömrəli kənd seçki dairələri yerləşirdi) hansınınsa seçki məntəqəsi var idi. Yəni, neçə illərdir ki, ağdamlı məcburi köçkünlər orada səs verirlər.**

Biz – bir neçə nəfər həmin məntəqənin qarşısındakı lövhədə asılmış təbliğat materialları ilə tanış olurduq. Bu sanatoriyada dəfələrlə gördüyüm, yəni, çoxdan tanıdığım yevlaxlı ağsaqqal uca səslə dedi: "Bu adamlar haranın siyasətçiləridir ki, fotoları İlham Əliyevin portreti ilə yanaşı asılıb? Onlar kimdir ki, xalq onlara səs versin? Hər yerindən duranın özünü İlham Əliyevə alternativ kimi göstərməsi nə dərəcədə doğrudur?".

Bu məqamda hamımızdan cavan olan bir nəfər ağsaqqalın sualını cavabsız qoymadı: "Sizin cənab Prezidenti sidq-ürəklə dəstəkləməyiniz alqışa layiqdir. Ancaq o biri namizədləri qətiyyən aşağılamaq olmaz. Onlar da bizim soydaşlarımız, Azərbaycan siyasətçiləridir. Onları da sevənlər, dəstəkləyənlər, siyasi həmfikirləri, ailə üzvləri var. Onların da daha güclü Azərbaycan naminə olan məram və məqsədləri var. Nə olsun ki, onlara səs verənlər az olacaq?"

Həmin adamın məsələyə aydın münasibəti məni məmnun elədiyinə görə tanış olmaq istədim. Məlum oldu ki, o, 44 günlük İkinci Qarabağ müharibəsinin biləsuvarlı şəhidi Əli Qənbərovun atası Mahir Qənbərovdur. Ondan oğlunun döyüş yolu barədə danışmasını istədim və əlavə etdim ki, yığcam da olsa, bir qəzet materialı hazırlayacağam. Dedi, bütün şəhidlər kimi mənim balam da Vətən naminə qəhrəmancasına döyüşüb, adı Azərbaycan üçün canını əsirgəməyənlərin sırasına yazılıb. Onu da əlavə etdi ki, Əli 44 günün ilk həftəsinin sonunda telefonla mənə demişdi ki, biz qalib gələcəyik. O vaxt zəfər qurbanı kəsərsiniz.

… Ailədə üç qardaşın yaşca kiçiyi olan Əli Vətən müharibəsi başlananda 6 ay idi ki, Füzuli istiqamətində hərbi xidmətdə idi. Ailə üzvlərinin sözlərinə görə, arzusu elə orduda qalıb, hərbçi kimi xidmət göstərmək olub. Sentyabrın 27-də xidmət etdiyi səngərdə "İrəli!" əmrini alanlardan olub. O andan bir neçə saat sonra Əlinin aylarla müşahidə etdiyi düşmən səngəri cəsur döyüşçülərimizin nəzarətinə keçib.

Atası danışdı ki, Əli bir neçə gərgin döyüşdə göstərdiyi şücaətlə seçilib. O, hətta, ağır əməliyyatlarda belə, öndə olub. Cəsur döyüşçümüz oktyabrın 6-da Füzuli rayonu ərazisində növbəti ağır döyüşlərdən birində şəhidlik zirvəsinə ucalıb.

İnternet məlumatlarından oxudum ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Əli Qənbərov ölümündən sonra

“Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.

Xatırladım ki, martın 4-də üç qardaşın kiçiyinin – cəsur döyüşçü Əli Qənbərovun 22 yaşı tamam olur. Allah rəhmət eləsin!